# «Göbələk Istehsalı» layihəsi üzrə daxili bazar araşdırması

# YEKUN HESABAT



KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

S|S

SAGE SOLUTIONS

if quality matters

# Mündəricat

1.0. Giriş
2.0. Araşdırmanın metodologiyası
3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri
4.0. Bazarın mövcud durumu
 4.1. İstehsalat müəssisələri və idxal-ixrac göstəriciləri
 4.2. Bazar çeşid və qiymət təklifləri
 4.3. İstehlakçıların münasibəti
5.0. Göbələk istehsalına dəstək amillər
6.0. Göbələk istehsalının SWOT təhlili
7.0. Texnologiyalar və sərmayələr təhlili
8.0. Dövlət dəstəyi proqramları
9.0. Nəticələrin qısa xülasəsi



# GÖBƏLƏK NƏDİR?



Göbələk (lat. *Fungi*) — mayalar və kiflər kimi mikroorqanizmlər və eləcə də geniş yayılmış papaqlı göbələklər kimi eukariot orqanizmlərin daxil olduğu geniş qrupdur. Göbələklər bitkilər, heyvanlar, bakteriyalar və protistlərdən fərqlənən və ayrıca bir aləm kimi Göbələklər adı altında birləşdirilən orqanizmlərdirlər.

# 1.0. Giriş

Təqdim olunan hesabat Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və maliyyə dəstəyi ilə Sage Solutions MMC konsaltinq şirkəti tərəfindən hazırlanmışdır. Göbələk istehsalatı müəssisələrinin təşkil edilməsi layihəsi üzrə aparılmış daxili bazar araşdırmasının əsas hədəfləri aşağıdakı amillərdən ibarətdir:

- Göbələk istehsalı və ticarəti bazarının mövcud durumunun öyrənilməsi və təhlili;
- Bazar istehlakçılarının fikirlərinin öyrənilməsi;
- Beynəlxalq təcrübənin təhlili və sərmayə perspektivlərinin araşdırılması;
- Yeni istehsal və emal müəssisələrinin təşkili perspektivlərinin təhlili.



# 2.0. Araşdırmanın Metodologiyası

Hazırkı hesabatla nəticələnən araşdırma, müxtəlif metodologiyaların tətbiqi vasitəsilə icra olunmuşdur.

Sözügedən metodologiyaların siyahisi aşağıdakı kimidir:

- statistik hesabatların toplanılması;
- göbələk istehsalı sənayesi və məhsulları bazarına aid məqalələrin və məlumatların toplanılması;
- qiymət və çeşid məlumatlarının bilavasitə satış nöqtələrindən toplanılması;
- istehlakçılar ilə sorğuların keçirilməsi;
- beynəlxalq təcrübənin öyrənilməsi;
- əldə olunmuş ilkin məlumatların sistemləşdirilməsi və təhlili.



**Qeydlər:**

Hesabat cari və potensial əməliyyatlar üzrə rəy, Sifarişçi və Potensial İnvestor gələcək uğuru və ya səmərəliliyi üzrə rəy, eləcə də investisiya məsləhətləri olaraq qəbul edilməməlidir. Bu Hesabat yalnız müqaviləyə şərtləri və tələblərinə uyğun olaraq istifadə edilə bilər.

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

Qidalılıq və dad keyfiyyətlərinə görə göbələklər şərti olaraq 4 kateqoriyaya bölünür:

**Birinci kateqoriyaya** yüksək dad və qidalılığı ilə seçilən göbələklər aid edilir. Südlücə, ağ göbələk birinci kateqoriyalı göbələklər hesab edilir.

**İkinci kateqoriyaya** aid göbələklər əla yeməli göbələklər olub, keyfiyyət və dad göstəricilərinə görə birinci kateqoriyalı göbələklərə nisbətən aşağıda durur. Şampinyon, yağlıca, qurutel, russula, giroporus bu kateqoriyaya aiddir.

**Üçüncü kateqoriyaya** aid göbələklər orta keyfiyyətli göbələklərdir. Alkövrək, sarıca və s. bu kateqoriyaya aiddir.

**Dördüncü kateqoriyaya** aid göbələklər aşağı keyfiyyətli göbələklərdir.  Çəpiş yağlıcası, çat-çat qurutel, asılqal və s. bu kateqoriyaya aiddir.



# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

Çiy halda zəhərli və ya kəskin iyi, acı dadı, bərk ləti olan, lakin mətbəx emalından sonra yeməli olan göbələklər şərti yeməli göbələklərə aid edilir. Bəzən cavan vaxtı yeməli olan göbələk (boz-bənövşəyi girodon, qış kötükcəsi, kandol psatirellası) digər məhsullarla birgə yeyildikdə zəhərlənmə verir. Məsələn, boz peyinər *(Coprinus atramentarius)* alkoqolla yeyildikdə zəhərlənmə verir.

Bu tip göbələklərin qida vasitəsi kimi istifadəsi ona əsaslanır ki, onların tərkibindəki zəhər ya termik emal zamanı parçalanaraq zərərsizləşir, ya da isti suda həll olunaraq atılır. Şərti yeməli göbələkləri hazırlayarkən onlar çox həcmli suda 35-40 dəqiqədən az olmayaraq qaynadılır, bulyon atılır, göbələklər isə suda yuyulur.

Bəzi şərti yeməli göbələklər yalnız qurudulduqdan 2 – 3 ay sonra istifadə edilir. Bu dövr ərzində onun tərkibindəki zəhərli maddələr parçalanır. Quzuqarnı, ipəkvari volvariella, yaşıl qurutel, qarağac liofili şərti yeməli göbələklər hesab edilir.

Onu da qeyd etmək lazımdır ki, bu təsnifat şərti xarakter daşıyır və son dövrlərdə bəzi göbələklər bir kateqoriyadan digərinə keçir. Belə ki, əvvəllər üçüncü kateqoriyaya aid edilən şampinyon bu gün öz məşhurluğuna görə birinci və ya ikinci kateqoriyada yer alır.

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## Meşə göbələkləri

### Azərbaycanda bitən göbələk növləri barədə məlumat (ümumilikdə 5020 növ)

| Siniflərin adları | Cins və növlərin sayı | | |
|---|---|---|---|
| | Cinslərin sayı | Növlərin sayı | |
| | | Ölkə üzrə | O cümlədən Naxçıvan |
| Myxomycota | 18 | 40 | - |
| Phycomycota | 45 | 240 | 47 |
| Ascomycota | 210 | 1020 | 67 |
| Basidiomycota | 260 | 2600 | 35 |
| Deuteromycota | 130 | 1120 | 22 |
| Cəmi | 763 | 5020 | 171 |





### Azərbaycanda bitən zəhərli göbələklər (18 növ)

| Elmi adı | Azərbaycanca adı |
|---|---|
| **Agaricus xanthodermus** | Sarıdəricikli şampinyon |
| **Amanita caesarea** | Sezar amanitası |
| **A.phalloides** | Solğun amanita |
| **A. muscaria** | Qırmızı amanita |
| **A. pantherina** | Panterli amanita |
| **Boletus satanas** | Şeytani boletus |
| **Clitocybe cerussata** | Ağarmış klitosibe |
| **C. gibba** | Qıfvari klitosibe |
| **Entoloma sinuatum** | Oyuqlu entoloma |
| **Hygrocybe conica** | Konusvari hiqrosibe |
| **Hypholoma fasciculare** | Kükürdlü qifoloma |
| **Inocybe geophylla** | Torpaqsevər inosibe |
| **Lepiota brunneo-incarnata** | Çəhrayi lepiota |
| **Mycena pura** | Təmiz misena |
| **Paxillus involutus** | Nazik paksil |
| **Ramaria formosa** | Gözəl ramaria |
| **Scleroderma aurantium** | Adi yalançı tozanaq |
| **Tricholoma sulphureum** | Kükürdü trixoloma |

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## Meşə göbələkləri

Fərdi biznes olaraq, Azərbaycanın bir sıra bölqələrində meşə göbələyi yığımı və satışı yerli sakinlər tərəfindən həyat keçirilir. Azərbaycanda daha çox şimal bölgəsində meşələrdən göbələk yığılır. Ölkəmizdə quzuqarnı göbələyi deyilən göbələk növü var ki, Xaçmaz, Şabran meşələrində yetişir.

Həmin göbələk mart ayının ikinci on günlüyündən başlayaraq aprelin 15-nə kimi toplanır.

Quzuqarnı göbələyı sıx meşənin tam ortalarında yetişir, o, həmin mühitə uyğun rəngdə olur. Bu göbələk ağacların çürüntülü yarpaqlarının dibindən böyüyür. Soyuq iqlimli yerdə kök salır, 15 gün ərzində yetişir. Onun yığılması çətin olduğu üçün kənd sakinləri yolların kənarlarında 0.5 kiloqramını 10 manata satırlar. Alıçılar əsasən Bakı sakinləri və daxili turistlər olur.

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## Meşə göbələkləri

Trüf göbələyi yerin altında yetişir, müxtəlif adlarla tanınır. Azərbaycanda, Türkiyədə "dombalan", Fransada "Truffe", İtalyada "Tartufi", İngiltərədə "Truffle" və s. Yerin 20 sm dərinliyində bitən bu göbələk meşə. Dünyada göbələyin 70 növü bilinir, lakin "qara almaz" adını almış növünə daha böyük tələbat var. göbələklər Azərbaycanda yalnız Arazboyu zonalarda, Aran Qarabağ və digər ərazilərində olur.

Tərkibindəki vitaminlərə, qidalılıq dəyərinə görə göbələyin qiyməti çox bahadır. Dünya bazarlarında göbələyin kiloqramı 200-3500 avro arasında dəyişir. Qara kürüdən sonra dünyada ən bahalı qida sayılır. Tərkibindəki protein, mineral maddə miqdarı baxımından digər göbələkləri qabaqlayır, 76 % su, 9 % protein, 7 % karbohidrat və 8 % minerallardan ibarətdir.



Kosmetika sənayesində də böyük tələbat olan göbələyin illik dövriyyəsi 6 milyard dollardır, ildən-ilə istehsal həcmi aşağı düşdüyü üçün qiyməti getdikcə bahalaşır. Bu gün dünyada cəmi 100 ton bu göbələkdən istehsal olunur, həcminin azalması meşə ərazilərinin azalması ilə izah olunur.

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## Istehsal olunan göbələklər- Şampinyonlar

Hazırda dünyada yetişdirilən ümumi göbələk istehsalının 60-75 faizi şampinyonun payına düşür. Bu göbələklərin əsas istehsalçısı və ixracatçısı ABŞ-dır. Şampinyon göbələyi vitamin və minerallarla zəngin olduğundan faydalı ərzaq məhsulu sayılır. Tərkibində B qrupu vitaminləri bol olan bu məhsul yaddaşın möhkəmlənməsinə müsbət təsir göstərir, insanın zehni fəaliyyətini aktivləşdirir.



Azərbaycanda da ən geniş istehsal olunan göbələkdir. Şampinyonların ölkəmizdəki ən böyük istehsalçısı Bakının Zirə kəndində yerləşən Proqress MMC-dir

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## Istehsal olunan göbələklər- Asılqal Göbələklər

Azərbaycanda ikinçi İstehsalı ən geniş yayılmış göbələk növü  İstridiya, asılqal (daha çox «veşenka» kimi tanınan) göbələkdir.  Bakıda iki, digər bölgələrdə, Naxçıvan, Khachmaz, Gax bölqələrində daha çox fərdi sahibkarlar tərəfindən yetişdirilən göbələyin müəssisələr üzrə ortalama aylıq istehsalı 800-1000 kg. bərabərdir.

Göbələk istehsalı, qaranlıq otaqlarda, tavandan asılmış və samanla doldurulmuş kisələrdə baş tutur.



İstridiya "veşenka" göbələyinin 100 qramında insan orqanizminə faydalı olan minerallar 8 % təşkil edir.
Bunlar - kaliy, fosfor, sink, yod, kalsium, dəmir və sairə. Tərkibinə görə bu göbələk ət ilə oxşardır. Ona görə də Azərbaycanın bəzi bölgələrində bu göbələyə "ət" göbələyi də deyirlər.

# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## Istehsal olunan göbələklər- Aspen Göbələklər

Yalnız bir sahibkar tərəfindən Qəbələ rayonunda çox məhdud həcmdə (ayda 600 kg-dək) istehsal olunur və istehsal olunan region və ətraf rayonlarda satışa çıxarılır.

Şampinyonlara oxşar (kompost daxilində), lakin plastik plyonkalı istixanada yetişdirilir.

Süd və ya qovaq göbələkləri kimi tanınan bu növ göbələklər siyahısında şərəfli bir yer tutur. Aspen (qovaq) süd göbələyi görünüşü ilə fərqlənir və keyfiyyətlərinə görə 1-ci kategoriyalı göbələklər sinfinə aiddir.



# 3.0. Azərbaycanda bitən və istehsal olunan göbələk növləri

## NƏTİCƏLƏR

- acıq təbiətdə bitən göbələklərin müxtəlifliyi 5020 növ olduqda müəssisələrdə becərdirilən müxtəliflik 3 növ ilə kifayətlənir;
- təbiətdə bitən göbələklər kənd və rayon sakinləri tərəfindən toplanaraq şəhərdən səfər edən daxili turistlərə satış edilir. Bu bir sıra qida təhlükələri yaradır və hər hansı bir sistem üzrə tənzimlənməlidir;
- Azərbaycan dünyanın ən bahalı qidalarından olan trufel göbələyi bitir və böyük ixrac potensialına malikdir.



# 4.0. Bazarın mövcud durumu



# 4.1. İstehsalat müəssisələri- Proqress MMC

2010-cu ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Zirədə yerləşən "Proqress" MMC-yə ayrılmış 990 min manat güzəştli kredit hesabına müəssisədə göbələk istehsalı və emalı genişləndirilərək, illik istehsal gücü 1200 tona çatdırılıb. 2011-cu ildə yeni yaradılmış istehsal sahəsində isə göbələyin bir hissəsinin konservləşdirilməsi başlanılıb





Müəssisənin istehsal güçü illik 3.6 min ton təşkil edir.

Müəssisədə 50 işçi çalışır

# 4.1. İstehsalat müəssisələri- Sahibkar Ənvər Haqverdiyev

Xaçmaz rayonunun Çarxı kəndində fəaliyyət göstərən müəssisədə il ərzində 20-25 ton şampinyon yetişdirilir.



Müəssisədə istehsal olunan məhsul Xaçmazla yanaşı, Quba, Qusar və Sumqayıtda da satışa çıxarılır.

Müəssisə beş ildir fəaliyyətdədir.

İlk illərdə gəlir əldə etmək mümkün olmasa da, indi müəssisə qazanc gətirir.

Göbələk əkildikdən sonra bir ay ərzində 3 dəfə məhsul toplanılır. 300 kvadrat metr sahədən 5 tona yaxın göbələk yığılır.




Çarxı kəndindəki müəssisədə yetişdirilən göbələyin topdansatış qiyməti 3 manatdır. Qablaşdırılmış halda isə 500 qram məhsul 2 manata satılır.

# 4.1. İstehsalat müəssisələri- Sahibkar Azər Əliyev




Bakı şəhərinin Saray qəsəbəsində fəaliyyət göstərən asılqal göbələk istehsalı toplam 400 kv. metr sahədə təşkil olunub. Burada kompost hazırlama, yetişdirilmə, yığımın toplanması və qablaşdırılması sahələri mövcuddur.

Ortalama həftəlik istehsal 200 kg. təşkil edir və hal-hazırda istehsalatın genişləndirməsi planlaşdırılmır. Məhsullar əsasən Bazarstore və Araz supermarketləri üzərindən satılır.

# 4.1. İstehsalat müəssisələri- «Təbiət» göbələk istehsalı müəssisəsi





Naxçıvanın Culfa rayonunda yerləşən "Təbiət" göbələk istehsalı müəssisəsi 12 ildir ki şampinyon istehsalı ilə məşquldur və Muxtar Respublikanın yerli tələbatını tam ödəyir.

2018-ci ildən etibarən şirkət asılqan göbələk istehsalına start vermişdir və pilot layihə başa çatdıqdan sonra mərhələli şəkildə istehsalı artırmaqa başlamışdır.

Hal-hazırda asılqan göbələk istehsalı aylıq 800-1000 kg təşkil edir və bu rəqəm hal-hazırda regionun bu növ məhsula tələbatını tam şəkildə ödəyir.

# 4.1. İstehsalat müəssisələri- sahibkar Elçin Abdullayev

Bu layihə ilə Şəki-Zaqatala iqtisadi zonasında ilk dəfə olaraq Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə xüsusi göbələk yetişdirilmə müəssisəsi yaradılmışdır



Sahibkar İlk öncə xaricdən toxum gətirərək öz həyətində kiçik bir parnik saldı və göbələyi yetişdirdi.

Bundan sonra istehsalatın genişləndirilməsi qərarı verildi, lakin maliyyə çətinliyi olduğu üçün ABAD-a (Ailə Biznesinə Asan Dəstək) müraciət olundu.



ABAD-dan bildirdilər ki, Şəki-Zaqatala iqtisadi zonasında kiçik ailə təsərrüfatlarının inkişafına dəstək məqsədi ilə Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı var. Layihənin əsas məqsədi kənd yerlərində müasir və davamlı ailə təsərrüfatlarının yaradılmasıdır.

Hal-hazırda müəssisə uğurla fəaliyyət göstərir və aylıq 600 kg.-dək yüksək keyfiyyətli məhsul istehsal edir.

# 4.1. İstehsalat müəssisələri

## NƏTİCƏLƏR

- ölkədə göbələk istehsalatı əsasən fərdi sahibkarlar və kiçik müəssisələr tərəfindən təşkil olunmuşdur;
- təşkil olunmuş istehsalatlar artıq uzun müddətdir ki fəaliyyətdədirlər və dayanaqlıqlarını təsdiq ediblər;
- ən böyük sərmayə qoymuş müəssisə Zirə qəsəbəsində yerləşmişdir və dövlət tərəfindən təqdim olunmuş qüzəştli kredit hesabına istehsal güçünü illik 3.6 min tona kimi genişləndirmişdir.
- digər fərdi müəssisələrin orta aylıq istehsal həcmi 300-600 kg. çıvarında dəyişir.




2020-ci il ərzində göbələk məhsullarının idxalı (ton/min ABŞ dolları)
Sirkəsiz hazırlanmış və ya konservləşdirilmiş digər göbələklər
2,06
5,35
Sirkəsiz hazırlanmış və ya konservləşdirilmiş Agaricus növlü göbələklər
9,38
15,27
Qurudulmuş digər göbələklər və yerdombalanı
0,39
6,68
Digər göbələklər və yerdombalanı, təzə və ya soyudulmuş
0,24
1,23
Göbələk telləri
35,21
80,12
0%
10%
20%
30%
40%
50%
60%
70%
80%
90%
100%
İdxal miqdarı
İdxal məbləği

# İXRAC

2020-ci il ərzində 18 ton göbələk məhsulları və yerdombalanı, təzə və ya soyudulmuş şəkildə ixrac olunub (Rusiya Federasiyası, Gürcustan və İtaliyaya). İxracın ümumi məbləği 106.02 min ABŞ dolları olub.



# 4.1. İdxal-ixrac statistikası

## NƏTİCƏLƏR



- göbələk məhsullarının idxalı çüzi səviyyədədir və demək olar kı hal-hazırda Azərbaycanın idxaldan asılılıqı yoxdur;

- eyni zamanda, köbələk tellərinin (toxumunun) idxalı baxımından yerli sənaye tamamilə beynəlxalq istehsalçılardan asılıdır.

# 4.2. Bazar çeşid və qiymət təklifləri

Yerli məhsul olan təzə və konservləşdirilmiş şampinyonlar çeşidi Proqress MMC tərəfindən təchiz olunur. Şirkət Azərbaycanın ən böyük şampinyon istehsalçısıdır və illik 3.6 min ton istehsalat gücünə malikdir. Hal-hazırda ümumi istehsalatın təqribən 88% təzə məhsul şəklində 12% konservləşdirilmiş məhsul kimi satışa çıxarılır.

Hal-hazırda şirkətin məhsulları pərakəndə satış bazarına 4 çeşidlə təqdim olunur, 1 təzə göbələk və 3 marinadlandırılmış göbələk məhsulu (3 fərqli tutum qablaşdırmada)

İki böyük market üzrə aparılmış qiymət monitoringinin nəticələri Əlavə 1-də təqdim olunub.









# 4.2. Bazar çeşid və qiymət təklifləri

Avrora MMC tərəfindən idxal olunan və Bonduelle şirkətinin Polşa-da istehsal olunan geniş çeşidli məhsulları sırasında iki göbələk məhsulu var. 1 məhsul daha geniş tələbatı olan marinadlaşdırılmış şampinyon digəri az həcmdə gətirilən və bir çox marketlərdə təqdim olunmamış yarıfabrikat Meksisan salatı qarışıqıdır. Məhsulun Azərbaycana idxalçısı Veyseloğlu brendidir.

Bonduelle qöbələk məhsullarının aparılmış qiymət monitoringinin nəticələri Əlavə 1-də təqdim olunub (ən aşağı qiymət verilməklə)






# 4.2. Bazar çeşid və qiymət təklifləri

Saville ölkənin ən böyük qida istehsalçısı olan Azərsun şirkətinin bir brendidir və 3 müxtəlif qablaşdırmada təqdim olunur. 2020-ci il ərzində şirkət 472 000 şərti banka göbələk turşusu istehsal etmişdir.

Göbələk məhsullarının aparılmış qiymət monitoringinin nəticələri Əlavə 1-də təqdim olunub (ən aşağı qiymət verilməklə)



# 4.2. Bazar çeşid və qiymət təklifləri

Rusiyanın Skatert-samobranka şirkəti 2020-ci il ərzində Azərbaycana ilk olaraq 2000 banka məhsul gətirib. Bazarda 3 çeşidlə daxil olmuşdur (2 çeşid fərqli çəkidə bal göbələk və bir çeşid süd göbələyi). Bütün məhsullar marinadlaşdırılmışdır.

Skatert-samobranka göbələk məhsullarının aparılmış qiymət monitoringinin nəticələri Əlavə 1-də təqdim olunub (ən aşağı qiymət verilməklə)



# 4.2. Bazar çeşid və qiymət təklifləri

Rusiyanın Glavprodukt brendi **Anshan Danga Food Co ltd. sifarişi ilə hazırlanmış göbələk məhsullarını Azərbaycanda 2013-cü ildən satır. 2020-ci il ərzində şirkət ümumilikdə 3100 müxtəlif şüşə qablarda 2 növ məhsul idxal edib: bir məhsul marinadlaşdırılmış bal göbələk digəri marinadlaşdırılmış assorti göbələk**

Şirkətin göbələk məhsullarının aparılmış qiymət monitoringinin nəticələri Əlavə 1-də təqdim olunub (ən aşağı qiymət verilməklə)



# 4.2. Bazar çeşid və qiymət təklifləri

Bazarda təqdim olunmuş digər məhsullar qismən göbələk tərkibli olduğundan onların barələrində ətraflı məlumatlar toplanılmayıb.

Həmin məhsulların kateqoriyalar üzrə siyahısı aşağıdakı kimidir:

- Göbələk supları
- Göbələk tərkibli yarimfabrikatlar



# 4.2. Bazar çeşid və qiymət təklifləri

NƏTİCƏLƏR

- çeşid baxımından təklif müxtəlifliyi zəngin deyil və bir neçə məhsuldan ibarətdir;
- Azərbaycanda yalnız iki istehsalçı konservləşdirilmiş göbələk məhsulu (marinadlaşdırılmış göbələk) istehsal edir;
- istehsalçıların qiymət təklifləri çox az fərqlənir və əsasən oxşardır.



# 4.3. İstehlakçıların münasibəti- hədəf qrupları

Göbələk xammalının hədəf istehlakçı qrupları aşağıdakılardan ibarətdir:

- ev təsərrüfatları;
- konservləşdirilmiş məhsul və yarımfabrikatlar istehsalçıları;
- HORECA (otellər, restoranlar, keyterinq şirkətləri);
- heyyət və ya müştərilərə qida təmin edənlər

  (misal üçün, ordu, xəstəxanalar, sanatoriyalar və s.)

Hər bir qrupun göbələk məhsullarına aid münasibətləri öyrənilmiş, rəylər toplanılmış və təhlil edilmişdir. Hesabatın 4.2. bölümünün növbəti səhifələrində istehlakçıların rəyləri üzrə ətraflı məlumatlar təqdim olunmuşdur



# 4.3. İstehlakçıların münasibəti- vətəndaşların rəyi

Ev təsərrüfatları və ya sıravi vətəndaşların rəyləri

(80 respondentin iştirakı ilə sorğu)

- Azərbaycan mətbəxində geniş təmsil olunmadığı üçün nadir hallarda alırıq (37);
- Zəhərlənmə ehtimalı səbəbindən bir az çəkinirik (12);
- Daimi alırıq, ayda ən azından bir dəfə (23);
- Ev üçün almırıq, lakin bu ya digər formada restoranlarda sifariş edirik (8)



- Qiymət kifayət qədər yüksəkdir (23);
- Qiymət münasibdir (57)

# 4.3. İstehlakçıların münasibəti- HORECA (otellər, restoranlar, keyterinq şirkətləri) sektorunun rəyi

## Emal müəssisələrinin rəyləri (3 respondentin iştirakı ilə sorğu)

- yekun məhsulun daxili bazar tələbatı az olduğundan emal həcmi azdır. Nəticə olaraq az həcmdə xammal alınır;
- xammalın və digər elementlərin qiyməti (qablaşdırma, etiket) xaricdən idxal olunan məhsullarla rəqabətlilik imkanları üçün şərayit yaratmır;
- məhsulların pərakəndə satışı mövsümlülük faktoruna bağlıdır və yay-payız əvvəli mövsümündə ümumiyyətlə konservləşdirilmiş göbələk məhsullarının satışı çox aşağı olur.



# 4.3. İstehlakçıların münasibəti- HORECA seqmenti

HORECA seqmentində 3 otel (2 yüksək ulduzlu, 1 aşağı ulduzlu, 2 restoran (bir milli, bir beynəlxalq), 1 keyterinq şirkətinin fikirləri öyrənilmişdir:

- ət məhsullarına göbələk əlavə olunur kı daha bahalı olan ətin azlığını kompensasiya etsin;
- Azərbaycan mətbəxində göbələkdən istifadə olunmur və bu səbəbdən menyuda olan digər mətbəxlərin;
- yeməklərinə, əsasən salatlar (2 növ), sup (1 növ), julyen (1 növ) və qarnirlərə (2 növ) istifadə olunur;
- təzə tərəvəzlər mövsümündə (iyun-oktyabr aylarında) tələbat azdır;
- Məhsul təklifi məhdud olduğundan, xammal qiymətləri kifayət qədər yüksəkdir



# 4.3. İstehlakçıların münasibəti- heyyət və ya müştərilərə qida təmin edənlər

Heyyət və ya müştərilərə qida təmin edənlərin (ordu, xəstəxanalar, sanatoriyalar və s.) rəyləri (8 respondent)

- digər tərəvəzlərlə nisbətdə qiymət daha yüksək olduğundan nadir hallarda istifadə olunur;
- kütləvi zəhərlənmə riski olduğundan istifadə etmirik;
- menyumuzda ümumiyyətlə göbələk tərkibli yeməklər yoxdur (allergik təhsirlər ehtimalı olduğundan)





# 4.3. İstehlakçıların münasibəti



## NƏTİCƏLƏR

- İstehlakçıların maarifləndirilməsində ehtiyac duyulur və bu bir sıra fobiyaların aradan qaldırılmasında köməklik göstərər;
- qiymət təkliflərinin bir qədər tənzimlənməsi istehlakın səviyyəsinin artırılmasında kömək ola bilər;

# 5.0. Göbələk istehsalına dəstək amillər

Araşdırma nəticəsində bir sıra amillər müəyyən edimişdir ki, onların müvafiq şəkildə dəyərləndirilməsi və atılmış addımlar istehsalın inkişafı üçün əlverişliri şərait yaratmış olardı:

- yetişdirilən göbələk müxtəlifliyində məhdudiyyətlər;
- yüksək qiyməti olan göbələk xammal və emal məhsullarının istehsalının və ixraçının genişləndirilməsi ;
- Azərbaycanda yarıfabrikatlar istehsal edən müəssisələrə dəstək



# 5.0. Göbələk istehsalına dəstək amillər- yetişdirilən göbələk müxtəlifliyində məhdudiyyətlər

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda göbələk istehsalı əsasən şampinyon istehsalı ətrafında cəmləşir və bu müəyyən dərəcədə anlanılan haldır. Şampinyon göbələyi ən çox istifadə olunan, yüksək məhsuldarlıq və az səy və xərc tələb edən bir məhsuldur.

Lakin, Azərbaycanın daxili istehlak bazarı yüksək ehtimalla bu məhsuldan «doyub» və növbəti mərhələlər üzrə genişləndirmə imkanları məhduddur.

Belə olan halda, göbələk xammal çeşidinin artırılması yeni istehlak seqmentlərinin yaranmasına və inkişaf etdirilməsinə səbəb ola bilərdi.

Bir çox idxal olunan göbələk növlərinin yerli məhsul ilə əvəzolunma potensialı kifayət qədər böyükdür.



# 5.0. Göbələk istehsalına dəstək amillər- yüksək qiyməti olan göbələk xammal və emal məhsullarının istehsalının və ixracının genişləndirilməsi

Azərbaycanda bitən trufel göbələyi Avropa və dünya bazarlarında yüksək qiymətli məhsul kimi tanınır. Azərbaycanda trufel göbələyindən istifadə artıq dərəcədə məhduddur.

Bu növ göbələyin artırılması və istehsalı üzrə Türkiyə tərəfindən bir neçə ildir ki araşdırmalar aparılır və bir sıra nəticələr əldə olunub.

Azərbaycanın bu prosesə qoşulması trufel istehsalı və ixracı bazarında mühüm yer tutmaq imkanları yaratmış olardı.

Bundan əlavə, Knorr, Gallina Blanka və sair beynəlxalq şirkətlər yarıfabrikat istehsalında təbii göbələkdən hazırlanan göbələk tozundan geniş istifadə edirlər. Sözügedən məhsulun 1 kg.hazırlanması üçün ən azından 8-9 kg. şampinyon göbələyindən istifadə olunur. Şirkətlərin illik istifadə həcmi hər birisi üçün 2-3 mln ton təşkil edir.

Umumilikdə, yarıfabrikatlar istehsalçıları üçün inqrediyentlərin emalı böyük və əlverişli bir sənayedir və göbələk emalı burada mühüm yer tutur.



# 5.0. Göbələk istehsalına dəstək amillər- Azərbaycanda yarımfabrikatlar istehsal edən müəssisələrə dəstək

Vaxta qənaət əsas amildir ki yarımfabrikatlar bazarının daimi genişlənməsi üçün şərayit yaradır. Bu qida sənayesi seqmenti artıq Azərbaycandadır və çox aşağı templə olsa belə inkişaf edir.

Bu gün Azərbaycanın yarımfabrikatlar istehsalı azdır, və ölkə bütün məhsul çeşidlərində idxaldan, əsasən Türkiyə, Rusiya, Ukrayna və Belarus idxalından asılıdır.

Buna əsas səbələrdən biri kifayət həcmdə və münasib qiymətə inqrediyent məhsulların və xammalın olmamasıdır.



# 5.0. Göbələk istehsalına dəstək amillər



## NƏTİCƏLƏR

Dəstək amillərin hər biri böyük inkişaf perspektivləri açaraq sənayenin müxtəlifliyini, mövcud istehsalat güclərinin tam işlədilməsi və hətta genişləndirilməsi imkanlarına öz töhvəsini verəcəkdir. Yeni sərmayəçilər tərəfindən bu amillərin qiymətləndirilməsi və müvafiq planlamaların aparılması tövsiyə olunur ki, təkçə istehlak bazarı deyil emal müəssisələri və ixrac imkanlarından da istifadə səmərəli şəkildə həyata keçirilsin.

# 6.0. Göbələk istehsalının SWOT təhlili

## STRENGTHS (GÜCLÜ TƏRƏFLƏR)

- daxili bazar tələbatının əsaslı səviyyədə ödənilməsi
- meşəliklərdə 5000 artıq göbələk çeşidi
- MDB ölkələrində kifayət qədər inkişaf etdirilmiş satış kanalları
- bir neçə əsaslandırılmış dəstək amilinin mövcudluğu (Bölmə 5.0)
- kiçik müəssisələrin regionlarda yaradılması
- Azərbaycan məhsullarının dünya bazarlarına çıxış imkanlarının genişləndirilməsi



# 6.0. Göbələk istehsalının SWOT təhlili

## WEAKNESSES (ZƏİF TƏRƏFLƏR)

- istehsal olunan müxtəlifliyin azlığı və idxaldan qismən asılılıq;
- daxili bazarın alış məhdudiyyətləri və bunun nəticəsində istehsalatın artmaması;
- emal çeşidinin olmaması (yalnız marinadlaşmış göbələk istehsal olunur);
- yarıfabrikat qida hazırlayan müəssisələrin olmaması;
- digər tərəvəzlərlə müqayisədə yüksək qiymət;
- İstehlakçı maarifləndirilməsinin aşağı səviyyədə olması və fobiyaları;
- miselium (toxum) idxalından bütövlüklə asılılıq.



# 6.0. Göbələk istehsalının SWOT təhlili

## OPPORTUNİTİES (İMKANLAR)

- Dünya bazarlarında yüksək qiymətə malik məhsulların ixraçı (trufel göbələyi, göbələk tozu və sair);
- Konserv məhsullarının çeşidinin genişləndirilməsi və ixraciyyat imkanlarının artırılması;
- Miselium (toxum) istehsalı və bu sahədə idxaldan asılılığın ləğv edilməsii;
- Müştərilərin maarifləndirilməsi və göbələk istehsalının artırılması hesabına qiymətlərin endirilməsi
- Xüsusi eksklüziv məhsulların istehsalı (ekoloji təmiz, organik, dietik və s.)



# 6.0. Göbələk istehsalının SWOT təhlili



THREATS (TƏHLÜKƏLƏR)

- Göbələk istehsalı sahəsində geriləmə;
- İxrac potensialının itirilməsi

# 7.0. Texnologiyalar və sərmayələr təhlili




Azərbaycanda fəaliyyət göstərən kiçik müəssisələr və ev təsərrüfatları göbələk istehsalında bir çox texnoloji tələblərə riayət etmir. Bu bir çox hallarda məhsuldarlıqın azaldılması və hətta bütün məhsulun məhv olunması ilə nəticələnir. Bu səbəbdən, hesabatın 7.0. Bölməsi ümumi texnologiyanın, lazımı avadanlıq və sərmayələrin qısa təsviri təqdim edir.

# 7.0. Texnologiyalar və sərmayələr təhlili- texnologiya

Göbələyin istehsalı üçün əsas beş aspektə riayət olunma məsləhət görülür:

- alınan miseliya (spor, toxumların) keyfiyyəti;
- hazırlanan və ya alınan kompostun keyfiyyəti;
- temperatur rejiminin saxlanılması;
- rütübət rejiminin saxlanılması;
- havalandırma rejiminin saxlanılması



# 7.0. Texnologiyalar və sərmayələr təhlili- texnologiya




Beləliklə:

- Kompostun hazırlanması və saxlanılması otağı istehsalat sahəsindən ayrı olmalıdır;
- Şampinonların yetişdirilməsi üçün ən əlverişli yer zirzəmidir, çünki oradakı temperatur və rütübət rejimi hər hansı bir isitmə və bir çox hallarda soyutma ehtiyacını aradan qaldırır
- Bir kameranın (istehsalat sexinin) 250-300 kv. metr olması ən optimal ölçü hesab edilir
- Rəflər arası məsafə ən azı 600 mm olmalı və ən aşağıdakı rəfin döşəmədən hündürlüyü 300 mm. az olmamalıdır

# 7.0. Texnologiyalar və sərmayələr təhlili- texnologiya

- hava ventilasiya sistemi mühümdür, cünki kompost yüksək səviyyədə carbon dioksid qazı istehsal edir və oksigenin olmaması məhsulu məhv edə bilər;
- peşəkar ventilasiya sisteminin qurulması mümkün olmadığı halda, bir neçə ventilyatorun quraşdırılması tövsiyə olunur;

- toxumların əkimindən sonra, 3 həftə ərzində havanın temperaturu +20-+24 dərəcə, toxumlar cücərdikdə +10-+12 dərəcə olmalıdır;
- göbələklər işiqlandırmada ehtiyac duymur və işiqlandırma sistemi işçilərin rahat işləməsi üçün qurulur;

- suvarma sistemi ilə təchiz olunan suyun temperaturu +18-+20 dərəcə olmalıdır



# 7.0. Texnologiyalar və sərmayələr təhlili- texnologiya

- göbələk sahəsinin havasının nəzarəti üçün peşəkar avadanlıq mikotron adlandırılır;
- istixanalarda yetişdirmək üçün ən çox tövsiyə olunan şampinyon növləri: Somycel 512, Hauser A15



# 7.0. Texnologiyalar və sərmayələr təhlili- sərmayə və maliyyə modeli

Sage Solutions MMC tərəfindən təqdim olunmuş texnologiyaya əməl olunduğu təqdirdə 570 kv.metrlik istehsalatın təşkil olunmasına tələb olunan ümumi sərmayə 16653 ABŞ dolları təşkil edir.

Göbələklərin yetişdirilməsi və satışı 4-cü aydan hesablanır.

570 kv.metrlik istehsal sexi olan ferma 3 səviyyəli rəf sxemi tətbiq etdiqdə 17 ton illik istehsal səviyyəsinə nail ola bilər.

17000 kg. x 2 AZN= 34000 AZN (ümumi gəlir)

İki işçinin məvacibi və sosial müdafiə ödənişləri (illik)- 12 ay x 800 AZN= 9600 AZN

Beləliklə:

34000 AZN – 9 600 AZN- 16653 AZN= 7 746 AZN birinci ilin gəliri (bütün kapital sərmayələr və istismar xərcləri daxil olmaqlar)

# 8.0. Dövlət dəstəyi proqramları

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixl 17 nömrəli qərarına müvafiq olaraq ölkəyə idxal olunan bir sıra kənd təsərrüfatı və emalı texnikası, o cümlədən qida sənayesində istifadə edilən suyun süzülməsi və ya təmizlənməsi üçün qurğu və avadanlıqlar, butulkaların və ya digər qabların yuyulması və qurudulması üçün avadanlıqlar, ərzaq məhsullarının istehsalında istifadə olunan avadanlıqların hissələri, pnevmatik qaldırıcılar və konveyerlər, meyvə və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, sortlaşdırılması və ya kalibrlənməsi üçün maşınlar və s. ölkəyə idxal edilərkən idxal rusmuna və əlavə dəyər vergisinə cəlb edilmirlər.



# 8.0. Dövlət dəstəyi proqramları

## Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)

<u>Startap şəhadətnaməsinin verilməsi-</u>

şəhadətnaməni alan mikro və kiçik sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq şəhadətnaməni aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilir.

## Sahibkarlığın İnkişaf Fondu

<u>Güzəştli Kreditləşdirmə-</u>

10 mln. AZN məbləğə kimi, 10 il müddətinə kimi, illik 5%-dək faiz dərəcəsi olan güzəştli kreditlərini əldə etmək imkanı.



# 8.0. Dövlət dəstəyi proqramları

## Aqrar Kredit və İnkişaf Agentliyi

Qüzəştli kreditləşdirmə

1 000 000 manatədək kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər. 5 ilədək müddətinə verilir.

## Azpromo

Satış və marketinq

2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) qeyri-neft sektorlarına xarici investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə fəaliyyət göstərir.

170 – dən çox ölkə ilə xarici ticarət əlaqələri qurmuş Azpromo, həmçinin Made İn Azerbaijan brendinin operatorudur.



# 9.0. Nəticələrin qısa xülasəsi



NƏTİCƏLƏR

- bazarın ixrac və emal məhsullarının müxtəlifliyinin genişləndirilməsi istiqamətlərində böyük perspektivləri var;
- göbələk istehsalı az sərmayə tələb etdikdən kiçik və orta sahibkarlar üçün maraqlı sahədir;
- lakin, xammal məhsullarının bu günə olan istehsalı, bazarı kifayət qədər zənginləşdirib və hər hansı bir yeni inkişaf istiqaməti işlənib təşkil olunmadığı təqdirdə, satış və marketinq baxımından müəssisələr çətinliklərdə üzləşəçəklər.

# ƏLAVƏ 1. Göbələk məhsullarının market qiymət təklifləri

| Brend və Məhsulun Adı | İstehsalçı və İdxalçı | Qiymət | Çəki |
|---|---|---|---|
| Asılqal (göbələkləri) | RDC | 2.99 azn | 360 gr |
| Şampinionlar | Zirə məhsul MMC | 2.50 azn | 500 gr |
| Bonduelle (göbələk turşusu) şampinion | Bonduelle Polska S.A/Veyseloğlu MMC | 4.39 azn | 540 gr |
| Göbələk şampinion | | 5.69 azn | 1 kg |
| Bonduelle (göbələk turşusu) şampinion | Bonduelle Polska S.A/Veyseloğlu MMC | 5.20 azn | 580 gr |
| Saville (marinad göbələk) | Azersun | 3.55 azn | 370 gr |
| Saville (marinad göbələk) | Azersun | 6.84 azn | 720 gr |
| Saville (marinad göbələk) | Azersun | 19.99 azn | 2 kg |
| Qruzdi skatert samobranka | OOO PK (Samobranka) | 9 azn | 530 gr |
| Qruzdi skatert samobranka | OOO PK (Samobranka) | 6.20 azn | 330 gr |
| Opyata skatert samobranka | OOO PK (Samobranka) | 9.05 azn | 530 gr |
| Dvoryanskoye razdolye (şampinion) | Hargis Group/Avrora | 4.85 azn | 580 gr |
| Dvoryanskoye razdolye (assorti) | Hargis Group/Avrora | 3.45 azn | 580 gr |
| Opyata marinad qlavprodukt | Anshan Danga Food Co ltd | 5.59 azn | 530 gr |
| Qruzdi marinad qlavprodukt | Anshan Danga Food Co ltd | 5.59 azn | 530 gr |
| Assorti marinad qlavprodukt | Anshan Danga Food Co ltd | 5.59 azn | 530 gr |